# *ULTRA TECHNOLOGIES Şirkətinin Xəbər Vermə Siyasəti*

Verilmə tarixi: 02.05.2016
Düzəliş: 001

Təsdiq olunub:

Abdul Qurbanov, Baş direktor

# 1. GİRİŞ

ULTRA TECHNOLOGIES ŞİRKƏTİ öz biznesini təhlükəsiz, vicdanla və düzgün şəkildə həyata keçirmək öhdəliyi daşıyır. Bizim bütün işçi heyətimizdən ən yüksək mümkün standartları saxlamaları tələb olunur. Bunun bir aspekti işlərin yanlışolduğundan narahat olduğunuz zaman bunu yuxrıya bildirmək cəsarətinə malik olmaqdır. Bu siyasətin məqsədi işçi heyətini mümkün qədər tez bir zamanda istənilən şübhəli olan yanlış hərəkəti məruz etməyə ruhlandırmaq, bu problemlərin necə qaldırılmasını izah etmək, və işçi heyətini onların problemlərinin ciddiyə alınacağı və konfidensiallığın qorunacağına əmin etməkdir.

# 2. ƏHATƏ DAİRƏSİ

**Bu siyasət aşağıdakılara tətbiq olunur:**
1. ULTRA TECHNOLOGIES Şirkətinin işçisi olmasına baxmayaraq ULTRA TECHNOLOGIES Şirkəti tərəfindən işlərinə nəzarət olunan bütün direktorlar, vəzifəli şəxslər, işçilər və digər şəxslər (ULTRA TECHNOLOGIES Şirkətinin işçi heyəti); və

2. ULTRA TECHNOLOGIES Şirkətinin bütün əməliyyatları, o cümlədən bütün hüquqi şəxsləri və biznes ərazi vahidləri və ULTRA TECHNOLOGIES Şirkəti tərəfindən idarə olunan birgə müəssisələr.

# 3. XƏBƏR VERMƏ NƏDİR?

Xəbər vermə işdə şübhəli olan yanlış hərəkət və ya təhlükələr ilə əlaqədar məlumatların məruzə olunmasıdır. Bura aşağıdakı nümunələr daxil ola bilər:
- Səhhət və təhlükəsizliyə yaranan təhlükə;
- Cinayətkar fəaliyyət;
- Bizim Davranış Qaydalarımız daxil olmaqla ULTRA TECHNOLOGIES Şirkətinin daxili siyasətləri və prosedurları;
- Rüşvətxorluq və korrupsiya;
- Damage to the environment;
- Ədalət mühakiməsində yanlışlıq;
- İstənilən hüquqi və ya peşəkar öhdəliklər və ya tənzimləyici tələblərə əməl olunmaması;
- Dələduzluq;
- Etinasızlıq;
- Bizim nüfuzumuzu zədələyəcək hərəkətlər etmək;
- Zorakılıq;
- Diskriminasiya;
- Konfidensial məlumatların icazəsiz açıqlanması;
- Yuxarıda sadalananlıarın açıq şəkildə gizlədilməsi.

Xəbər verən şəxs yuxarıdakılar və ya ULTRA TECHNOLOGIES Şirkətinin maraqlarına xələl gətirəcək hər hansı digər davranş barədə vicdanlı şəkildə əsl problemi ortaya qoyan şəxsdir, əgər sizin bizim fəaliyyət sahəmizə təsir göstərən istənilən şübhəli yanlış hərəkət və ya təhlükə barədə narahatlığınız olarsa, siz bunu məruzə etməlisiniz. Bəzi yurisdiksiyalarda, müəyyən davranış barədə hesabat vermək üçün hüquqi öhdəliklər vardır və ya hesabat verməmək bu hərəkətə cəlb olunmaq kimi başa düşülə bilər. Əgər sizin öz fəaliyyətinizdə spesifik tələblərlə əlaqədar hər hansı sualnız olarsa, zəhmət olmasa, öz sorğunuzu Biznesdə etik prinsiplərə əməl olunması üzrə Qrupun Başçısı və ya baş direktora göndərin.

## 4. MƏSƏLƏNİN QALDIRILMASI

ULTRA TECHNOLOGIES Şirkətinin bütün işçi heyəti yanlış hərəkət və ya potensial yalnış hərəkət barədə xəbərdar olduğu halda müvafiq şəxslərə bildiriş vermək məsuliyyəti daşıyırlar. Mümkün olduğu halda, ULTRA TECHNOLOGIES Şirkətinin işçi heyəti şübhəli yanlış hərəkət və ya ilk daxili təhlükə ilə əlaqədar narahatlıqlar barədə hesabat verməyə ruhlandırılır.

Uyğunluq funksiyasını yaxşılaşdırmaq məqsədilə, biz Biznesdə Etik Prinsiplərə Əməl olunması üzrə Qrupu yaratmışıq (BIG). Əlaqəli uyğunluq üzrə infrastruktur uyğunluq üzrə məsul korporativ yüksək vəzifəli şəxslərlə birlikdə bizim biznesimiz üçün məcburidir. Məsul korporativ vəzifəli şəxslər şirkət daxilində müvafiq səlahiyyətə, rəhbərlikdən kənar müvafiq müstəqilliyə və şirkətin uyğunluq proqramının effektiv şəkildə həyata keçirilməsini təmin etmək üçün kifayət qədər resurslara malikdir. BİG komandası hazırda aşağıdakılar tərəfindən təmsil olunur:

- Zaur Məmmədzadə, Beynəlxalq Münasibətlər üzrə Baş Direktorun məsləhətçisi, BIG-in rəhbəri
- Niyaməddin Əlili – Maliyyə Qrupunun Başçısı, Strateji Şuranın üzvü, BIG-in üzvü
- Səfiya Nəzamətdinova – İnsan Resursları Qrupunun Rəhbəri, Strateji Şuranın üzvü, BIG-in üzvü
- Tural Qocayev – Hüquq Departamentinin Rəhbəri, BIG-in üzvü

Əgər əmin deyilsinizsə, zəhmət olmasa müəyyən təxirəsalınmaz məsələlər barədə hesabat vermək üçün BİG-in üzvlərindən biri ilə məsləhətləşə bilərsiniz. Eyni zamanda, siz biznes etikası və uyğunluq məsələlərində BİG üzvlərindən məsləhət ala bilərsiniz.

Biz ümid edirik ki, əksər hallarda, siz öz komanda rəhbəriniz ilə istənilən məsələni qaldıra biləcəksiniz, bu, normal halda ən yaxşı yoldur. Əgər siz hiss edirsinizsə ki, onlar sizin məsələnizə müraciət etməyib, və ya əgər siz hər hansı səbəbdən bunu onlarla qaldırmağa üstünlük versəniz, və ya siz anonim qalmaq istəsəniz, siz internet xidmətindən istifadə edə bilər **www.ultraitegrity.com** və ya birbaşa olaraq BİG üzvlərinə müraciət edə bilərsiniz. Siz həmçinin ULTRA TECHNOLOGIES Şirkətinin ofislərində mövcud olan çap edilmiş kağız formasından istifadə edərək müraciət edə bilərsiniz.
Biz dərhal (48 saat ərzində) və ədalətli şəkildə hər bir daxil olan mesajı nəzərdən keçirəcəyik. İşlərin xülasələri rüblük olaraq ULTRA TECHNOLOGIES Şirkətinin Strateji Şurasına təqdim olunacaqdır.

## 5. KƏNAR AÇIQLAMALAR

BU siyasətin məqsədi iş yerində hər hansı yanlış hərəkət barədə hesabat vermək üçün daxili mexanizmi təmin etməkdir. Əksər hallarda, siz istənilən şəxsə kənardan bildiriş verməyi zəruri hesab etməməlisiniz. Qanunda təsdiq olunur ki, bəzi şəraitlərdə sizin tənzimləyici kimi xarici orqana öz şikayətlərinizi məruzə etməyiniz müvafiq ola bilər. ULTRA TECHNOLOGIES Şirkətinin İə / İnformasiya üzrə Menecer vasitəsilə ULTRA TECHNOLOGIES Şirkəti ilə əlaqəli məsələrlə bağlı media ilə əlaqə saxlamaq müvafiq hesab olunur.

## 6. İŞÇİLƏRİMİZİN QORUNMASI

Bizim fikrimizcə yuxarı ilə danışmaq və doğru işi görmək və ULTRA TECHNOLOGIES Şirkətinin işçi heyətini bunu etməyə ruhlandırmaq vacibdir. Biz əsl xəbər verənlərə qarşı qisas hərəkətlərinə tolerantlıq göstərmirik və bütün qisas iddialarını ciddi qəbul edirik. Qisas alma hərəkətləri intizam tədbirləri və işdən azad etmə ilə nəticələnə bilən yanlış davranış hərəkətləridir. Əgər siz xəbər verməyə görə qisasın qurbanı olduğunuza inanırsınız, siz bunu Biznesdə etik prinsiplərə əməl olunması üzrə Qrup və ya Hüquqi Qrupa hesabat verməlisiniz.

## 7. ƏLAVƏ MƏLUMAT ÜÇÜN

Əgər sizin bu Siyasət barədə hər hansı sualınız olarsa, zəhmət olmasa, Biznesdə Etik Prinsiplərə əməl Olunması üzrə Qrupun Başçısı ilə əlaqə saxlayın. Bu siyasətə vaxtaşırı olaraq düzəliş edilə və yenilənə bilər. Bu Siyasətin ən son versiyasını www.ultraintegrity.com saytı vasitəsilə əldə etmək olar. Bu Siyasətə düzəlişlər yalnız ULTRA TECHNOLOGIES Şirkətinin Baş Direktoru tərəfindən edilə bilər.